# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
## Q Ə R A R

### "Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair Qaydalar"ın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cu il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair Qaydalar" təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 12 fevral 2024-cü il

№ 83

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 12 fevral
tarixli 83 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair

# QAYDALAR

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 18.4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair qaydaları və bununla bağlı indikatorları müəyyən edir.

1.2. Bu Qaydalar fiziki və hüquqi şəxslər tərəfindən valyuta sərvətləri və milli valyutanın Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi, bu ərazidən aparılması və tranzit keçirilməsi zamanı tətbiq olunur.

## 2. Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılması

2.1. Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş valyuta sərvətləri və milli valyutanın bəyan edilməsi rejiminin tələbləri çərçivəsində bəyan edilməmiş və ya düzgün bəyan edilməmiş valyuta sərvətləri və milli valyutanın aşkar edilməsi hallarında gömrük orqanları onların mənbəyi və istifadə məqsədi barədə məlumat və sənədləri, o cümlədən bu Qaydalara əlavə edilmiş "Valyuta sərvətləri və milli valyutanın mənbəyi və istifadə məqsədi barədə məlumatların təqdim edilməsi forması"nın doldurulmasını tələb edir (əlavə olunur).

2.2. Gömrük orqanları valyuta sərvətləri və milli valyutanın bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi hallarında bu Qaydaların 3.1-ci bəndi ilə müəyyən edilmiş indikatorları nəzərə almaqla onların mənbəyini və istifadə məqsədini müəyyənləşdirir.

2.3. Gömrük orqanları aşağıdakı hallarda valyuta sərvətləri və milli valyutanın hərəkətinin 48 saat müddətində dayandırılmasına dair Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 99-cu maddəsinə uyğun olaraq protokol tərtib edir və bu barədə gömrük orqanının rəhbəri tərəfindən əsaslandırılmış qərar qəbul edilir:

2.3.1. fakt üzrə inzibati araşdırmanın və ya cinayət təqibinin aparılması zamanı valyuta sərvətləri və milli valyutanın maddi sübut qismində götürülməsi halları istisna olmaqla onların bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi hallarında;

2.3.2. cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və digər cinayətlərin əlamətləri aşkar edildikdə.

## 3. Valyuta sərvətləri və milli valyutanın hərəkətinin dayandırılması ilə bağlı indikatorların siyahısı

3.1. Bu Qaydaların 2.2-ci bəndində nəzərdə tutulan hallarda gömrük orqanları aşağıdakı indikatorları nəzərə alır:

3.1.1. valyuta sərvətləri və milli valyutanın mənbəyi və istifadə məqsədilə bağlı məlumatların onları Azərbaycan Respublikasının gömrük sərhədindən (bundan sonra – gömrük sərhədi) keçirən şəxs tərəfindən təqdim olunmasından imtina edilməsi və ya bu barədə bir-biri ilə ziddiyyət təşkil edən, habelə düzgün olmayan məlumatların verilməsi;

3.1.2. valyuta sərvətləri və milli valyutanı gömrük sərhədindən keçirən şəxs tərəfindən gömrük orqanlarına düzgün olmayan məlumatları əks etdirən və ya etibarsız sənədlərin təqdim edilməsi;

3.1.3. valyuta sərvətləri və milli valyutanı gömrük sərhədindən keçirən şəxsin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan yüksək riskli zona hesab edilən ölkəyə (əraziyə) səyahət etməsi və ya belə ölkədən (ərazidən) qayıtması, habelə valyuta sərvətləri və milli valyutanın mənbəyinin və ya istifadə yerinin belə ölkə (ərazi) göstərilməsi;

3.1.4. valyuta sərvətləri və milli valyutanı gömrük sərhədindən keçirən şəxsin gömrük işi sahəsində hüquqpozmalarla əlaqədar əvvəllər məsuliyyətə cəlb edilməsinin müəyyən olunması.

## 4. Yekun müddəalar

4.1. Bu Qaydaların 2.3-cü bəndində nəzərdə tutulan hallarda gömrük orqanları müvafiq məlumat və sənədləri araşdırmanın aparılması üçün Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə və cinayət təqibini həyata keçirən orqana göndərir.

4.2. Bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulan məlumat və sənədlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 23 sentyabr tarixli 338 nömrəli Qərarı ilə təsdiq edilmiş "Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilən məlumat və sənədlərin tərtib olunma forması"nda nəzərdə tutulmuş formada və qaydada göndərilir.

4.3. Hərəkəti dayandırılmış valyuta sərvətləri və milli valyuta bu Qaydaların 2.3-cü bəndində nəzərdə tutulmuş hallarda gömrük orqanlarının müəyyən etdiyi yerlərdə nəzarət altında saxlanılır.

4.4. Gömrük orqanlarına bu Qaydaların 2.3-cü bəndində nəzərdə tutulmuş müddət ərzində cinayət təqibini həyata keçirən orqan və Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti tərəfindən valyuta sərvətləri və milli valyutanın dayandırılmasına kifayət qədər əsasın olmaması ilə bağlı məlumat daxil olduqda və ya hər hansı məlumat daxil olmadıqda, gömrük orqanları onların sahibinə qaytarılması ilə bağlı əsaslandırılmış qərar qəbul edirlər.

“Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair Qaydalar”a

**əlavə**

| | | |
|---|---|---|
|  | **VALYUTA SƏRVƏTLƏRİ VƏ MİLLİ VALYUTANIN MƏNBƏYİ VƏ İSTİFADƏ MƏQSƏDİ BARƏDƏ MƏLUMATLARIN TƏQDİM EDİLMƏSİ FORMASI**<br>***Formanı doldurmazdan əvvəl qeydləri oxuyun**<br>***BÖYÜK HƏRFLƏRDƏN İSTİFADƏ EDİN / UYĞUN OLARAQ İŞARƏLƏYİN** | NÖMRƏSİ<br>123456789101112 |

| | | | |
|---|---|---|---|
| 1. | O Azərbaycana giriş | O Azərbaycandan çıxış | O Azərbaycan ərazisindən tranzit keçid |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2. Şəxsi məlumatlar | O kişi | | O qadın | Sənədi verən orqan | | | |
| Soyadı | | | | Sənədin etibarlılıq tarixi | gün | ay | il |
| Adı, atasının adı | | | | Əlaqə nömrəsi | | | |
| Vətəndaşlığı | | | | | | | |
| Doğum tarixi | gün | ay | il | Ünvan (küçə/№) | | | |
| Doğulduğu yer | | | | | | | |
| Şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi | | | | Şəhər/Rayon | | | |

| | | | |
|---|---|---|---|
| 3. Valyuta sərvətləri və milli valyuta-nın sahibi sizsiniz | O Bəli (4-cü cədvəli doldurun)<br>Xeyr, sahibi:<br>(şəxs haqqında məlumatları qeyd edin) | O Hüquqi şəxs<br>O Fiziki şəxs | |
| Hüquqi şəxs | | Ünvan (küçə/№) | |
| VÖEN | | Şəhər/Rayon | |
| Soyadı | | Poçt/İndeks | |
| Adı, atasının adı | | Ölkə | |

| | | |
|---|---|---|
| 4. Valyuta sərvətləri və milli valyuta haqqında məlumatlar | Məbləğ | Valyuta |
| | | O AZN O USD O EUR O TRY O RUB O Digər |
| | | O AZN O USD O EUR O TRY O RUB O Digər |
| | | O AZN O USD O EUR O TRY O RUB O Digər |

| **5. Valyuta sərvətləri və milli valyutanın mənbəyi və istifadə məqsədi** | | | |
|---|---|---|---|
| Mənbə | **O** Əməkhaqqı **O** Pensiya **O** Müavinət **O** Miras **O** Sahibkarlıq fəaliyyəti **O** Lotereya **O** Mərc oyunu **O** Digər *(cavab digərdirsə, mənbəyi qeyd edin)* | | |
| İstifadə məqsədi | **O** Əməkhaqqı ödənişi **O** İnvestisiya **O** Xeyriyyəçilik **O** Sahibkarlıq fəaliyyəti **O** Digər *(cavab digərdirsə, məqsədi qeyd edin)* | | |
| Valyuta sərvətləri və milli valyutanın istifadəçisi sizsiniz | **O** Bəli (6-cı cədvəli doldurun) Xeyr, istifadəçi: **O** Hüquqi şəxs **O** Fiziki şəxs (istifadəçi haqqında məlumatları qeyd edin) | | |
| Hüquqi şəxs | | Ünvan (küçə/№) | |
| VÖEN | | Şəhər/Rayon | |
| Soyadı | | Poçt/İndeks | |
| Adı | | Ölkə | |

| **6. Nəqliyyat məlumatları** | | | | | |
|---|---|---|---|---|---|
| Nəqliyyatın növü | **O** Hava **O** Dəniz **O** Avtomobil **O** Dəmir yolu **O** Digər | | | | |
| Daşıma şirkəti | | Biletin nömrəsi | | | |
| Gediş ölkəsi | | Gediş tarixi | gün | ay | il |
| Təyinat ölkəsi | | Gəliş tarixi | gün | ay | il |

| | | |
|---|---|---|
| 7. İmza: | Səlahiyyətli şəxsin imzası və möhürü | **Qeydlər: Kimlər Formanı təqdim etməlidir?** Gömrük sərhəd buraxılış məntəqələri vasitəsilə ölkə sərhədlərini keçən hər bir fiziki şəxs. **Hansı hallarda Forma təqdim edilməlidir?** • valyuta sərvətləri və milli valyutanın bəyan edilməsi rejiminin tələbləri çərçivəsində bəyan edilməmiş və ya düzgün bəyan edilməmiş valyuta sərvətləri və milli valyutanın aşkar edilməsi hallarında. |

| | | |
|---|---|---|
| | | **Nəyə görə Forma təqdim etməliyəm?**<br>• ölkənin iqtisadi və milli təhlükəsizliyini təmin etmək; cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə aparmaq;<br>• ölkənin qanunvericiliyindən irəli gələn tələblərə əməl edən cəmiyyət formalaşdırmaq |